# SƏNƏTDƏ PARLAYAN ULDUZ

**Ruqiyyə Süleymanova**
Ü.Hacıbəyli adına BMA ''Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: orqanologiya və akustika'' elmi laboratoriyasının aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**E-mail:** fhexiyev012@gmail.com

Dahi sənətkarların yaşı olmur; onlar sənətləri ilə həmişəyaşardırlar. Dünyasını dəyişmiş ustadlar haqqında keçmiş zamanda danışmaq qeyri-mümkündür, "vəfat etdi" deməyə adamın dili gəlmir. Belə korifeylərdən biri də incəsənətimizdə ali məqamı, səhnə istedadı, xüsusi səs tembri ilə seçilən, yaratdığı hər obrazla tamaşaçısına bir insan ömrünü yaşatmağı bacaran, Azərbaycan xalqının qəlbində və yaddaşında daim yer tutan Amaliya Pənahovadır. Onun ölümü ilə Azərbaycan teatr səhnəsi həqiqətən böyük itki yaşadı. Aktrisanı sevən bizlərə isə sonsuz təsəlli olaraq, teatr, ekran əsərlərində yaratdığı ölməz sənət obrazları qaldı. Onun Azərbaycan kino və teatr səhnəsində yaratdığı yüzlərlə obrazlara baxdıqca özündə təskinlik tapırsan və deyirsən ki, bəli, o ölməyib, həmişəyaşardır.



Amaliya Əliş qızı Pənahova 1945-ci il iyunun 15-də Gəncə şəhərində ziyalı ailəsində anadan olmuşdu. 1966-cı ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu ixtisasını bitirmiş, 1964-cü ildən ömrünün sonunadək teatr və kino sahəsində beş yüzdən artıq obraz yaratmışdı.

Teatr və kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə 1974-cü ildə Əməkdar artist, 1985-ci ildə isə Xalq artisti fəxri adına layiq görülüb, "Şöhrət", "Şərəf" ordenləri ilə təltif edilib.1982-də ilin aktrisası elan edilib, 1998-ci ildə isə adı Birinci Kino Festivalında türk dünyasının altı populyar aktyoru sırasında qeyd olunub. 2000-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, MM-in sosial-siyasət daimi komissiyasının üzvü, MDB Parlamentlərarası Mədəniyyət, İnformasiya, Turizm, İdman daimi Komissiyasının sədri, Azərbaycan-İtaliya Parlamentlərarası işçi qrupunun sədri kimi çalışıb.

Amaliya xanımın səhnə fəaliyyəti görkəmli dramaturq, Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ilə sıx bağlıdır. Aktrisanın öz kəlmələri ilə desək: "Müəllifin teatra təqdim etdiyi 20 pyesin 13-də baş rolda çıxış etmişəm. O rolların hamısı sanki mənim üçün yazılıb. Mənə qədər İlyas Əfəndiyevin «Bahar suları» və «Atayevlər ailəsi» tamaşaya qoyulmuşdu. Amma sonra onun teatrla əməkdaşlığında böyük fasilə yarandı... Gənc yaşlarımda teatrda çox məşğulluğumdan bir çox kino rollarından məhrum olmuşam. Üstəlik də, başqa aktyorlar həmişə məni qısqanıblar. Belə intriqaların nəticəsində çox rollar əlimdən çıxıb. Məsələn, «Gün keçdi» filmindəki Əsmər rolu. Arif Babayevi o qədər bezdirdilər ki, axırda məni o rola çəkməkdən vaz keçdi..."

Amaliya Pənahova ilk dəfə səhnəyə 1964-cü ildə 18 yaşında olarkən, İlyas Əfəndiyevin «Mənim günahım» pyesindəki Nurcahan personajı ilə çıxıb. Yazıçının qəhrəmanlarına uğurlu səhnə həyatı bəxş edən aktrisa ilk gündən orijinal ifası ilə diqqəti çəkib. Gənc qız elə ilk vaxtlardan özünü Azərbaycan tamaşaçısına sevdirməyə nail olur.

1964-cü ildə müəllifin Akademik Dövlət Dram Teatrında oynanılan «Sən həmişə mənimləsən» tamaşası ilə milli teatrımızda lirik-psixoloji üslubun əsası qoyulur. Tamaşanın quruluşçu rejissoru Tofiq Kazımov, rəssamı Elçin Aslanov, bəstəkarı Fikrət Əmirov idilər. Tamaşada Həsənzadə və Nargilə rollarını ilk dəfə ifa edən Xalq artisti Əli Zeynalov və gənc aktrisa - o vaxtlar 19 yaşı olan Amaliya Pənahova dueti çox maraqla qarşılanır. Obraza girmək bacarığı aktyorlar tərəfindən xüsusi orijinallıqla, professionallıqla sərgilənmişdi.

1968 ci ildə Azərbaycan Dövlət Dram Teatrında Şekssprin "Hamlet" əsəri rejissor T.Kazımovun quruluşunda səhnəyə qoyulur. Tamaşada əsas rolları Həsənağa Turabov (Hamlet), Amaliya Pənahova (Ofeliya), Şəfiqə Məmmədova (Gertruda), Məmmədrza Şeyxzamanov (Poloniy) canlandırmışdılar. Amaliya xanım Ofeliya obrazını səmimiyyətlə, təbii yaradaraq özünün ifaçılıq qabiliyyətini, istedad və səhnə hünərini bir daha təsdiqlədi. Ofeliya sadə, məsum və saf bir qızdır. Atasının ölümündən sonra onun dəlilik səhnəsini A.Pənahova dramatik hərəkətlə, fiziki və mənəvi hazırlıqla oynayır... Musiqi tamaşadakı xeyirlə şərin mübarizəsi zamanı çarpışan qüvvələrin daxilində baş verən gərginliyi, əzabı, üzüntünü, peşmançılığı aydın və dəqiq ifadə edir.

1968-ci ildə İlyas Əfəndiyevin «Unuda bilmirəm» tamaşası quruluşçu rejissor Tofiq Kazımov, rəssam Sənan Qurbanov, bəstəkar Emin Sabitoğlu tərəfindən səhnəyə qoyulur. Teatr tədqiqatçıları tərəfindən Həsən Turabov (Kamran), Amaliya Pənahova (Nərmin), Məmmədrza Şeyxzamanov (Möhsünzadə) və digər aparıcı aktyorların yaratdıqları rollar parlaq yaradıcılıq nailiyyətləri kimi qiymətləndirilir. Tamaşa xalq tərəfindən sevildiyindən dönə-dönə seyr etmək arzusuna görə, 1981-ci ilə qədər yalnız Akademik Milli Dram teatrının səhnəsində 350 dəfə oynanılmışdır. Çağdaşlarının mənəvi-əxlaqi problemlərini həmişə diqqət mərkəzində saxlayan İlyas Əfəndiyev tamaşanın davamı olaraq illər sonra «Bizim qəribə taleyimiz»də (2005) «Unuda bilmirəm» pyesindəki hadisələrin 20 ildən sonrakı təsvirini vermişdir.

Amaliya Pənahovanın yaratdığı Nərminin surəti səmimi musiqi ilə xarakterizə edilir. "Məni sənə bağlayan eşqim, məhəbbətimdir" sözləri ilə başlayan mahnının melodiyası lirik və incədir. Sanki musiqi gənclik səmimiyyətinin ifadəsidir. Yüngül vals ritmində bəstələnən mahnı sevinc və təbəssüm saçaraq Nərminin xəyalpərəst təbiətini açır. Bu baxımdan özünün axıcı melodiyası və harmonik dili ilə seçilən mahnı ilk növbədə Nərminin poetik aləmini səciyyələndirmək üçün bir vasitədir.

1971-ci ildə teatr səhnəsində tamaşaya qoyulan «Mahnı dağlarda qaldı» əsəri İlyas Əfəndiyevin tarixi janrda yazdığı ilk pyesidir. Dramaturqun tarixi mövzulu lirik-psixoloji dramına səhnə quruluşunu rejissor Əliheydər Ələkbərov verib. Əsərdə 1920-ci ilin ictimai-siyasi hadisələri işıqlandırılır. Pyesdə bəy, mülkədar, mənəvi zadəganlıq məsələlərinə tamamilə yeni fəlsəfi-estetik kontekstdən yanaşılır. Həmin dövrü əhatə edən hadisələrin əsl dəyəri, insan münasibətlərinin mürəkkəb və ziddiyyətli tərəfləri dramaturji baxımdan real şəkildə qələmə alınıb. Burada da teatrşünaslar tərəfindən Böyük bəy, Şahnaz, Fəxrəndə xanım obrazları dramaturgiyamızda yeni motiv kimi səciyyələndirilir. Premyerası 1971-ci il fevral ayının 12-də baş tutmuş tamaşanın rəssamı Nüsrət Fətullayev, bəstəkarı Süleyman Ələsgərov idi. Tamaşada Həsən Turabov (Nicat), Amaliya Pənahova (Şahnaz), İsmayıl Dağıstanlı (Böyük bəy), Leyla Bədirbəyli (Fəxrəndə xanım) maraqlı və cazibəli səhnə surətləri yaradıblar. Baş rolları canlandıran Həsən Turabov və Amaliya Pənahovanın obrazları kövrək psixoloji lirizmə, incə yumora əsaslanır. Aktyorlar öz rollarını böyük şövqlə, yüksək professionallıqla ifa etmişlər. Tamaşa elə ilk premyerasından uğurla qarşılanmış və sonra Dövlət mükafatına layiq görülmüşdür.

«Mahnı dağlarda qaldı» pyesinin artıq ilk tamaşaları Azərbaycan teatrı sənətində yeni, orijinal bir əsərin meydana gəlməsindən xəbər verirdi. Belə ki, ilk resenziyaların birində oxuyuruq: «Əməkdar incəsənət xadimi, bəstəkar S.Ələsgərovun yaratdığı musiqi hadisələrin ruhuna uyğun olmaqla, müəllif və rejissor fikrinin tamaşaçılara daha yaxşı çatdırılmasına xidmət edir».

Şahnaz rolunda çıxış edən Amaliya Pənahova səhnəyə ilk gəlişi ilə tamaşaçıların rəğbətini qazanır. O, Böyük bəyin bacısı olaraq, var-dövlət içərisində böyüsə də zəngin mənəviyyata malik bir qızdır. Şahnaz psixoloji planda işlənmiş bir obrazdır. Onun baltaçı Həsənalının oğlu Nicata bəslədiyi məhəbbət də adicə şıltaqlıq deyil. Şahnaz-A. Pənahovanın simasında biz iki obraz görürük. Biri bütün varlığı ilə Nicatı sevən, hər şeyi məhəbbətinə qurban verməyə hazır olan; digəri isə bağlandığı zəmindən möhkəm yapışan, qəddar bəyin əlinə tapança verib onun qaçmasını təşkil edən Şahnazdır.

«Mahnı dağlarda qaldı» tamaşasına yazılmış musiqi mühüm dramaturji funksiyalarını yerinə yetirərək, səhnə hadisələrinin gedişatının nizamlanmasında müəyyən dinamik səciyyəli temp, ritmin yaranmasında mühüm rol oynayır.

Nicat-Şahnaz dramatik xəttinin mürəkkəbliyi, dərin psixoloji çalarları "Aman ovçu" xalq mahnısının müxtəlif transformasiyalara uğramış variantları ilə ifadə edilir.

Əsas qəhrəmanların musiqi portretini təfsir edən bəstəkar leytmotiv prinsipinə dayaqlanır. Tamaşada bir neçə dəfə səslənən bu mahnını əsas qəhrəmanların nakam məhəbbətinin leytmotivi də hesab etmək olar. Nəhayət, tamaşanın sonunda səslənərək Şahnazın acı taleyinin rəmzi kimi qavranılır.

1981-ci ildə İlyas Əfəndiyev ikinci dəfə tarixi mövzuya müraciətlə, «Xurşidbanu Natəvan» pyesini teatra təqdim edir. Tamaşaya həmin vaxtlar Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının (indiki Musiqili Dram Teatrı) baş rejissoru olan Xalq artisti Mərahim Fərzəlibəyov Milli Akademik Dram Teatrına quruluş vermək üçün dəvət olunur. Tamaşanın rəsm tərtibatı Elçin Aslanova, musiqisi bəstəkar Arif Məlikova məxsusdur. Natəvan surətini Amaliya Pənahova həzin, bir qədər qüssəli və bir qədər də fəlsəfi-psixoloji çalarların sintezində ifa edir. Səksən dörd yaşlı Ağasadıq Gəraybəyli Qoca knyaz rolunda coşqun və dinamik obraz kimi verilmişdir.

1973-cü il aprel ayının 8-də «Qəribə oğlan» tamaşası Akademik Dövlət Dram Teatrının repertuarına daxil edilir. İlyas Əfəndiyevin komediya janrında yazdığı əsərə quruluş verən Xalq artisti, rejissor Ağakişi Kazımov və bəstəkar Emin Sabitoğlunun böyük professionallıqla qurduqları mizanda - Əlağa Ağayev, Nəcibə Məlikova, Mirvari Novruzova və o vaxtlar cavan aktyor heyəti sayılan, sonralar sənətkar zirvəsinə ucalan Amaliya Pənahova, Kamal Xudaverdiyev, Səməndər Rzayev, Ramiz Məlikov və başqaları da maraqlı obrazlar yaratmışlar. Teatrın uzunömürlü əsərlərindən olan bu tamaşa da digərləri kimi dəyərli aktyor heyətinin timsalında geniş xalq sevgisi qazandı.

1983-cü ildə tamaşaya qoyulan «Büllur sarayda» dramı da maraqlı səhnə əsəri kimi bu günədək tamaşaçıların yaddaşından silinməyib. Tamaşada Amaliya Pənahova, Yaşar Nuriyev, Fuad Poladov, Rafael Dadaşov, Əlabbas Qədirov, Hacı İsmayılov, Hamlet Qurbanov və başqa aktyorlar rol almışlar. Həmin vaxtlar «Büllur sarayda» tamaşası Xalq artisti rejissor Cənnət Səlimova tərəfindən Səməd Vurğun adına Rus Dram Teatrında da tamaşaya qoyulmuşdu. Bu tamaşa da özünün orijinal səhnə tərtibatına, rejissor yozumuna görə maraqlı alınmış, rusdilli tamaşaçılar tərəfindən müsbət qarşılanmışdı.

Azərbaycan Akademik Milli Dram Teatrında səhnələşdirilən «Büllur sarayda» tamaşasının rejissoru Ağakişi Kazımov, bəstəkarı O.Kazimi olmuşdur. O.Kaziminin «Büllur saray» pyesinə yazılmış musiqi rejissor A.Kazımov təfsiri ilə həmahəng səslənərək, əsərin əsas ideyasının açılmasına yönəlib. Aynur obrazını canlandıran A.Pənahova öz rolunu həm daxilən, həm də zahirən sərt ifa edir. İlk səhnələrdə o, şən və firavan bir qızdır. Əsərin sonunda Aynuru yuxudan ayıldan itirdiyi məhəbbət olur. Qəfəsdən çıxmaq, ilk sevginin saflığına qayıtmaq üçün Aynur büllur sarayda əsir quş kimi çırpınır. Bəstəkar O.Kazimi tamaşanın musiqi obrazını daxilən hiss etmiş, bədii leytmotivi əsasən doğru, dramaturqun öz dəst-xətti ilə münasib üslubda seçir. İlk növbədə hadisə və xarakterlərin daha dolğun açılmasına psixoloji zəmin hazırlayır, onların dərin məzmun qatlarına nüfuz edir.

1984-cü ildə S.Rəhmanın AMDT-da «Nişanlı qız» əsəri tamaşaya qoyulur. Tama-

şada əsas rolları Amaliya Pənahova, Siyavuş Aslan, M.Hacıbəyov, R.Dadaşov və başqaları oynayırlar. A.Pənahova Zərifə obrazını canlandırır. Aktrisa öz titrək səsi, şux qaməti və yerişi ilə yaddaqalan səhnə obrazı yaratmışdır. E.Sabitoğlu tərəfindən tamaşaya yazılmış musiqinin ən maraqlı nömrələrindən biri də Zərifə və Mindillinin ifa etdiyi mahnıdır. "Sevənlərə nəğmə deyək" sözləri ilə başlanan mahnının melodiyası coşqun, sadə rəqs ahəngindədir. Zərifə ilə Mindillinin qarşılıqlı hissləri mahnıda daha aydın ifadə edilmişdir.

Televiziya və teatr tamaşalarında əsas rollarda çıxış edən A. Pənahova özünün rəngarəng oyun üslubu ilə Azərbaycan səhnəsi üçün çox böyük bir tapıntı idi. Onun tamaşalarda yaratdığı obrazlar öz təbiiliyi, həyatiliyi, emosional təsiri, dərin psixoloji yozumu ilə hər zaman seçilib.

1985-ci ildə Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı AMDT-da «Təhminə və Zaur» adı altında M.Fərzəlibəyovun quruluşunda səhnəyə qoyulur. Aparıcı rolları A.Pənahova, Fuad Poladov, Z.Ağakişiyeva, F.Mütəllimova, R.Novruzov və başqaları ifa edirlər. A.Pənahova qəhrəmanı Təhminənin daxili dünyasını bacarıqla açа bilir. Aktrisa hər sözün, hərəkətin yerini, mənasını dəqiq duyduğuna və ifa etdiyinə görə sözləri bəzən eyhamla, bəzən də ciddi deyir, sevdiyi Zauru da, tamaşaçısını da sarsıtmaq iqtidarında olur. Biz onun ifasında faciəsini dərk edən, təkliyini duyan, həmçinin sezən bir qadının yanıqlı, ehtiraslı, səmimi ah-naləsini görürük. «Təhminə və Zaur» tamaşasına yazılmış musiqinin müəllifi E.Sabitoğludur. O, tamaşaya bəzən kədərli, yeri gələndə oynaq, insanda həyat eşqi coşduran musiqi bəstələyib. Bu musiqi həm tamaşanın ruhunu, həm də tamaşaçıların ovqatını dəqiq əks etdirir.Və əsəri daha da təravətləndirir.

Amaliya Pənahova sənətdə ən parlaq qələbələrini Akademik Milli Dram Teatrında (AMDT) qazanıb. İ.Əfəndiyevin sadaladığımız bir çox dram tamaşalarında oynadığı rollarla yanaşı, Ofeliya («Hamlet», Vilyam Şekspir), Luiza («Məkr və məhəbbət», Fridrix Şiller), Medeya («Medeya», Jan Anuy), Anka («Nazirin xanımı», Branislav Nuşiç), Firəngiz («Oqtay Eloğlu», Cəfər Cabbarlı), Larisa («Cehizsiz qız», Aleksandr Ostrovski), Pəri («Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev), Reyhan («Yağışdan sonra», Bəxtiyar Vahabzadə), Nigar («Qanlı Nigar», Sadıq Şendil), Təhminə («Təhminə və Zaur», Anar), Zərifə («Nişanlı qız», Sabit Rəhman), Mehri ana («Gecə döyülən qapılar», Nəbi Xəzri), Şəlalə («Yalan», Sabit Rəhman) rolları aktrisanın həyatında, eyni zamanda teatrın tarixində mühüm yer tutur. Aktrisanın ifadə vasitələri əlvan və poetikdir.

Amaliya Pənahova Azərbaycan televiziya tamaşalarının inkişafında həm aktrisa, həm də rejissor kimi misilsiz xidmətlər göstərmişdir. O, "Topal Teymur", "Təkan" (həm də rejissor), "Mənim Günahım", "Sənsiz" (həm də rejissor) teletamaşalarında teatr və kino sənətinin vəhdətini yaradır.

Görkəmli sənətçinin yaradıcılığının böyük bir hissəsi kino sənəti ilə bağlıdır. Kinoya gəlişi onun üçün heç də çətin olmadı. Çünki qeyd etdiyimiz kimi, səhnədə ikən söz və plastikanın misilsiz vəhdətini yaratmağa nail olmuşdu.

Kinoda azərbaycanlı aktyor nəslinin daha çox rol almasına və gənc aktrisaların özünütəsdiqinə şərait yaradan Adil İsgəndərov kurs tələbələrini 1963-cü ildə ekranlaşdırdığı "Əhməd haradadır?" filminə çəkir. Amaliya xanıma da epizodik rol verir. Buna qədər aktrisa Əlisəttar Atakişiyevin "Bizim küçə" filmində (1961) kütləvi səhnələrdə çəkilmişdi. Bu filmdən sonra görkəmli rejissor, yazıçı və kinodramaturq Həsən Seyidbəyli "Cazibə qüvvəsi" filmində aktrisaya idmançı obrazını tapşırır. Əlbəttə ki, tələbə aktrisa üçün kinoda çəkilmək böyük uğur idi. Lakin Amaliya xanım bacarığını daha geniş planlı rollarla təsdiqləmək istəyirdi. Azərbaycan qadınının həyat mövqeyini əsərlərində və filmlərində geniş şərh edən Həsən Seyidbəyli aktrisaya "Sən niyə susursan" (1966) filmində uşaqlı ana rolunu həvalə edir. Həmin illərdə Amaliya xanımın qaynar teatr fəaliyyəti olsa da, kinoda dəvət aldığı üçüncü, dördüncü planlı rollardan belə imtina etmir, həvəslə oynayırdı.

Aktrisanın kinoda ilk böyük rolu Əlisəttar Atakişiyevin 1977-ci ildə çəkdiyi "Qərib cinlər diyarında" film-nağılındakı Zərri obrazıdır. Şux qamətinə, rəqs etmə bacarığına, mülayim çöhrəsinə görə əcinnədən çox gözəl məxluq təsiri bağışlayan aktrisanın maraqlı ifası, jestləri kiçikyaşlı tamaşaçılarda bu obraza nifrətdən çox məhəbbət yaradır. Onun "Həyat bizi sınayır" filmində yaratdığı Münəvvər, "Xatirələr sahili"ndə Xalidə, "Səmt küləyi"ndə Xədicə, "Mezozoy əhvalatı"nda Nərminə və başqa lirik-psixoloji ekran personajları realist təqdimatına görə seçilir, yadda qalır.

Amaliya xanım kino üçün xarakterik olan iri planlar aktrisası idi. O istənilən dramatik məqamı baxışları və sifət ifadələri ilə aydın şəkildə çatdıra bilirdi.

Var-dövlət arzusu ilə yaşayan kasıb kəndli balası haqqında söhbət açan bu filmdə Zərri üçüncü, dördüncü planlı rol olsa da, Qəribin başına gələn bəlaların səbəbkarı və filmin aparıcı qüvvəsi kimi uğurludur. O, Qəriblə cinlər arasındakı münasibətləri gərginləşdirən vasitəçi, cinlər diyarının iyrənc qanunlarını öz şəxsində göstərən vacib personajdır. Paxıl və qısqanclığına görə cəmiyyətdə xaos yaradan iblis xislətli məxluqların məkrli cəhətləri Zərridə cəmlənib. Yaxşının pisə, düzün əyriyə qalib gəlməsini Zərri kiçik seyrçilərinə böyük məharətlə çatdırır.

"Arxadan vurulan zərbə" filmi Elçinin «Ox kimi bıçaq» povesti əsasında rejissor Arif Babayev tərəfindən 1977-ci ildə ekranlaşdırılmışdır. Filmdə əsas rolları Şahmar Ələkbərov, Adil İsgəndərov, Yusif Vəliyev, Hamlet Xanızadə, Amaliya Pənahova, Akif Əli və Rasim Balayev ifa edirlər. Filmin mövzusunu - Əhməd Qəmərlinin (Həsən Məmmədov) müəmmalı şəraitdə qətlə yetirilməsi və respublika cinayət axtarışı müstəntiqi Gündüz Kərimbəylinin (Şahmar Ələkbərov) qatili tapmaq üçün apardığı uzun axtarışlar təşkil edir. Müəlliflər burada insan iradəsinin yenilməzliyindən, vətən məhəbbətinin hər şeydən üstünlüyündən söhbət açmışlar. Amaliya Pənahovanın "Arxadan vurulan zərbə" detektiv janrlı filmdə yaratdığı dilli-dilavər Ziba obrazı geniş tamaşaçı auditoriyasının diqqətini çəkir. Ziba hay-küylü, əslində isə halal zəhməti ilə yaşayan bir xanımdır. Cəmiyyətin ona qarşı müəmmalı mövqeyinin səbəbi isə açıqfikirli, həddən artıq səmimi və fərqinə varmadığı aqressiv olmasıdır.

Amaliya xanım yaratdığı irili-xırdalı obrazların hər birinin estetik təbiətini, fərdi xüsusiyyətini aydın şəkildə tamaşaçıya göstərir. Teatr və kinoda bir çox tarixi qadın şəxsiyyətlərimizin xarakterləri məhz onun yaradıcılığında (Tomris, Xan qızı Natəvan və s.) açılır.

"Babək" tammetrajlı bədii filmi rejissor Eldar Quliyev tərəfindən 1979-cu ildə ekranlaşdırılıb. Filmdə əsas rolları Rasim Balayev, Həsənağa Turabov, Amaliya Pənahova, Tamara Yandiyeva, Şahmar Ələkbərov, Məmməd Verdiyev, Həmid Azayev və Ənvər Həsənov ifa edirlər. Filmdə Zərnisə obrazını yaradan aktrisa təkcə güclü, məğrur, eyni zamanda, çoxbilmiş lider qadın kimi təqdim edilmir. O, həmçinin ssenaridən gələn məziyyətlərə uyğun olaraq, özünü qayğıkeş ana kimi də göstərir. "Babək" filmindəki Zərnisə obrazı Amaliya xanımın daxili məğrurluğundan, novatorluq qabiliyyətindən bəhrələnən roldur.

Xarakterinə zidd kino personajlarını belə, Amaliya xanım özününküləşdirməyi məharətlə bacarırdı. Bəlkə də elə buna görə rejissorlar müraciət edir və onunla çəkiliş meydançasında işləməkdən zövq alırdılar. Amaliya Pənahova üçün kino yaradıcılığında, elə teatrda

da janr sərhədi olmayıb. Ustalığını səciyyələndirən ən vacib amillərdən biri də elə bu idi. O sadəcə yaşayırdı, kino üçün zəruri olan da elə budur - yaşamaq, sözsüz fikri çatdırmaq...

2009-cu ildə rejissor Rövşən Almuradlının çəkdiyi "Cavad xan" bədii filmində Amaliya xanım Knyaginya Darya personajını yaradır. XIX əsr rus zadəgan xanımı onun personajlar qalereyasında təzad idi. Həmişə milli personajları yaradan və möhür vuran aktrisa bu dəfə başqa bir millətin nümayəndəsini təqdim edirdi. Əslində mürəkkəb heç nə yoxdur, sadəcə fərq onda idi ki, milli ruhlu personajlarının yanında həmin milli ruha qənim kəsilən işğalçı qadını yaratmalı idi. Amma aktrisa bu dəfə başqa bir texnika ortaya qoyur. İstənilən halda Zərnisə kimi Knyaginya Darya da qadındır və hər şey qadın xətti üzərində cəmlənməli idi. Amaliya xanımın bu süjet xəttini uğurla həyata keçirməsi onun manevr imkanlarından xəbər verir.

Səhnə üçün vacib olan gözəlliyini itirməyən, mənəvi dəyərləri həmişə uca tutan Amaliya Pənahova qəhrəman qadın obrazları və lirik-psixoloji rolları ilə Azərbaycan kino və səhnə tarixində dərin iz buraxmış sənətkardır. Onun müxtəlif xarakterli personajlarının yalnız bir oxşar cəhəti var: şəxsiyyətindən rollarına hopan əzəmət.

Amaliya Pənahovanın səsi kino üçün tapıntı idi. Filmlərin səsləndirilməsi və dublyajı prosesinə yaxından qatılaraq hətta rolunu zəif ifa etmiş aktrisanın belə "eyiblərini" misilsiz və özünəməxsus səsi vasitəsi ilə örtmüş olurdu. Odur ki, "dublyaj rolun 50 faizi deməkdir" ifadəsini heç də təsadüfi işlətmirlər. Filmin səsləndirilməsi prosesi bəzən çəkiliş prosesindən də çətin və mürəkkəbdir. Dublyaj sənətinin vacib cəhətlərindən biri də aktyorun ifadəli səs tembrinə, dilin mükəmməl tələffüzü və yüksək danışıq mədəniyyətinə malikliyidir. Aktyorların sözə həddən artıq məsuliyyətli və səliqəli yanaşması yeknəsəqlikdən uzaq dublyaj yaradır.

1960-1980-ci illərdə dublyaj olunmuş filmlərdə bu dəyərlər əsas götürüldüyündən peşəkar səsləndirmə filmlərin təsir gücünü daha da artırmışdı. Amaliya Pənahovanın müxtəlif janrlı filmlərdə səsləndirdiyi Aişə ("Alma, almaya bənzər"), Lalə ("Ürək... ürək..."), Ağbəniz ("Qızıl uçurum"), Selcan ("Dədə Qorqud"), Balış ("Qanun naminə"), Tanya ("Bizim Cəbiş müəllim"), Əsmər ("Gün keçdi"), Tatyana ("İstintaq davam edir"), Xalidə ("O qızı tapın"), Sona ("Var olun, qızlar..."), Elmira ("Bizim küçənin oğlanları"), Xəlilova ("Lətifə"), zoopark müdiri ("Ən vacib müsahibə"), Simurq quşu ("Cırtdanın yeni sərgüzəşti" qısametrajlı cizgi filmində) və başqa obrazları ifadəli səsi ilə ifaçılar qədər bitkin yaratması filmin ideya məzmununu tamaşaçılara dəqiq və dolğun şəkildə çatdırır.

İstedadlı aktrisa 1964-cü ildən ömrünün sonunadək teatr səhnəsində 300-dən artıq obrazlar qalereyası yaratmış, 30-a yaxın filmdə bənzərsiz rollar oynamış, 20-dək filmi isə maraqlı, ifadəli səs tembri ilə səsləndirmişdir.

Amaliya Pənahova öz təkrarolunmaz sənəti ilə səhnəmizə və ekranımıza yeni fenomenal obraz gətirdi - bundan sonra da neçə-neçə nəslin qaynaqlana biləcəyi Azərbaycan qadını obrazı!

1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradaraq ömrünün sonuna qədər bu teatra rəhbərlik etmiş və burada 12 tamaşaya quruluş vermişdir.

Unudulmaz aktrisa, Azərbaycan teatr və kino sənətinin əvəzolunmaz sənətkarlarından biri Amaliya Pənahova fəaliyyəti dövründə sənətdə əldə etdiyi nailiyyətlərinə görə dövlət tərəfindən ən yüksək fəxri adlara, orden və mükafatlara layiq görülüb. Böyük sənətkar yüksək istedadı, təkrarolunmaz ifa tərzi ilə qazandığı xalq məhəbbətini hər şeydən üstün tuturdu.

Amansız ölüm istedadlı aktrisanı aramızdan aparsa da, Amaliya Pənahovanın əziz xatirəsi onu tanıyan və sevənlərin qəlbində daim yaşayacaq.

Tam əminliklə söyləyə bilərik ki, zaman ötdükcə gələcək nəsillərimiz üçün teatr və kino sahəsində Amaliya Pənahova yaradıcılığı bir məktəb olacaq. İllər keçəcək, lakin öz təbiiliyi, həyatiliyi, emosional təsiri və dərin psixoloji yozumu ilə seçilən Amaliya Pənahovanın yaratdığı obrazlar gözəl sənət nümunələri kimi yaddaşlardan silinməyəcək. ❖


**Ədəbiyyat:**

1. İ.Rəhimli. Teatr tarixi. Çaşıqoğlu, 2005.
2. https://az.wikipedia.org/wiki/Amaliya_Pənahova
3. Ş.Bürcəliyeva. "Sənətə böyük sevgi". ''Mədəniyyət'' qəzeti, 14 iyun 2013
4. İ.Kərimov. "Hamlet" "Azərbaycan gəncləri" qəzeti , 1968-ci il, 18 may
5. S.Behbudqızı. "Amaliya Pənahova ilə müsahibə". Milli. Az. İnternet portalı, 22 iyul 2014
6. Ş.Müşfiq. "Azərbaycan incəsənətinin Amaliya Pənahova itkisi". ''525-ci qəzet'', 09.11.2018
7. T.Məhərrəmova. "Sənətdə iz qoyan qüdrətli qadın". ''Kaspi'' qəzeti, 9 noyabr 2018
8. K.Qasımov. "Amaliya Pənahova sənətkarlığı: səhnədə və ekranda". ''525-ci qəzet'', 14.06.2019
9. "Unudulmaz sənətkarın xatirinə", ''İki sahil'' qəzeti, 16 iyun 2019
10. Milli TV.az informasiya xəbər portalı, 03.07.2019
11. B.Bağırov. "Mahnı dağlarda qaldı", "Azərbaycan gəncləri" qəzeti, 1971, 21 yanvar
12. Y.Qarayev. "Büllur saraylar və adamlar", "Kommunist" qəzeti, 1963-cü il, 30 dekabr
13. Q.Xəlilov. "Sağlam mənəviyyat mövqeyindən", "Kommunist " qəzeti, 1986-cı il, 8 yanvar



**Резюме**

Ругия Сулейманова

ЗВЕЗДА, СИЯЮЩАЯ В ИСКУССТВЕ

Статья посвящена жизни и творческой деятельности народной артистки Азербайджана, депутату Милли Меджлиса 2000-2005 годов, обладательнице орденов «Шараф» и «Шохрат» Амалие ханум Панаховой. В статье исследуется её роль в раскрытии внутреннего мира женских образов и персонажей, и о методе поднесения их широкой зрительской аудитории.



**Ключевые слова:** кино, театр, сцена, телешоу, телефильм, искусство, драма, режиссер, профессор, деятель искусства



**Summary**

Rugiya Suleimanova

A STAR SHINING IN ART

The article is dedicated to the life and creative activity of the People's Artist of Azerbaijan, deputy of the Milli Majlis of 2000-2005, holder of the orders "Sharaf" and "Shokhrat" Amale Khanum Panahova. At the same time, she explores the role in revealing the inner world of female images and characters, introducing them to a wide audience.



**Key words:** cinema, theater, stage, TV show, television movie, art, drama, director, professor, art worker